# Azərbaycanın ilk maarifçi qadını

*Bir vaxtlar Azərbaycan qadını səsi eşidilməyən nağmə kimi idi - ürəyində min hekayə daşısa da, söyləməyə meydan tapmazdı. Sonralar illərlə bağlı qalmış qapılar açıldı, dar bir cığırla başlayan yol, zamanla maarifin, mübarizənin, direnişin enişli-yoxuşlu səmtinə çevrildi. O yolun ilk yolçularının adları tarix kitablarında, ruhları isə zamanın yaddaşında qalıb. Maarifçi Azərbaycan qadınları əllərində silah deyil, kitab tuturdular. Savaş meydanı məktəblər idi. Onlar qələmi cəhalətə qarşı silaha çevirmişdilər. Bir məktub yazmaqla, bir uşaq oxutmaqla, bir səhnədə görünməklə bütöv bir nəsli oyadır, cəmiyyətə azad düşüncə toxumları səpirdilər. Onlar yalnız ana, müəllim, yalnız şairə deyil, bir xalqı oyanışa, milli özünüdərkə səsləyən maarifçi qadınlar idi.*

Hənifə Məlikova da millətin yolunu aydınladan maarifçiliyin sədaqətli əsgərlərindən idi. 1856-cı ildə Şimali Qafqazın Nalçik şəhərində dünyaya gələn Hənifə xanım Tiflisdəki Müqəddəs Nina qız məktəbində təhsil alan ilk müsəlman qızlarından biri idi. 1872-ci ildə Tiflisdə Müqəddəs Nina məktəbini bitirən qızların adları "Qafqaz" qəzetində dərc olunur. Siyahıda Hənifə xanım Abayevanın da adı vardı. Müsəlman xanımla ailə qurmaq istəyən maarifçi Həsən bəy Zərdabi siyahını oxuyandan sonra Tiflisə yollanır. Fikir birliyi və ideallarin uyğunluğu iki ziyalını maarifçilik yolunda birləşdirdi.

Hənifə xanım Həsən bəy Zərdabi ilə birgə Azərbaycan maarifçiliyinin bünövrəsini qoyub. O, bir müəllim, maarif işçisi kimi cəmiyyətin tərəqqisi üçün çalışıb. Dövrünün savadlı qadınlarından biri kimi, Azərbaycan mətbuatının və maarifçiliyinin inkişafında fəal rol oynayıb.

"Əkinçi" qəzetinin nəşrində Hənifə xanımın rolu xüsusilə qeyd olunmalıdır. O, təkcə həyat yoldaşı yox, həm də ideya yoldaşı kimi Həsən bəy Zərdabinin yanında dayanıb. "Əkinçi" qəzeti tribuna idi və bu tribunanın qurulmasında Hənifə Məlikovanın əvəzsiz əməyi vardı. Qəzetin hazırlanması, redaktə işləri, məqalələrin toplanması və bəzən onların yazılmasında həyat yoldaşı ilə birgə çalışırdılar. 1880-ci ildən etibarən Zərdabda yaşamağa başlayan Məlikovlar öz evlərini məktəbə çevirmişdilər. Məktəb pulsuz fəaliyyət göstərirdi və burada təhsil almaq istəyənlər üçün qapılar açıq idi. Bütün çətinliklərə baxmayaraq, onlar savadsızlıqla mübarizə aparırdılar. Lakin məktəbin saxlanılması böyük maddi və mənəvi güc tələb edirdi. Həsən bəyin müraciət etdiyi "Müsəlman şagirdlərinə yardım cəmiyyəti" ilk vaxtlar maddi dəstək göstərsə də, zaman keçdikcə bu dəstək azaldı, Məlikovlar çətinliklər qarşısında qaldılar. Bundan əlavə, yerli din xadimləri və Zərdabda məskunlaşmış bəzi ərmənilər onların fəaliyyətinə açıq-aşkar təzyiqlər göstərirdilər. Hənifə xanım və ailəsi 16 il polis nəzarəti altında yaşamağa məcbur oldu, lakin yolundan dönmədi. O, öz evində uşaqlara dərs deməklə yanaşı, kəndlərə, obalara gedir, qadınlara oxumağı, yazmağı öyrədirdi. Hənifə xanım rus dilindən nağıllar tərcümə edir, uşaqlara nağıl dili ilə dünyanı tanıtmağa çalışır, ən sadə vasitələrlə cəhalətin təməlini sarsıdırdı.

1901-ci ildə Hacı Zeynalabdin Tağıyevin maddi dəstəyi ilə Həsən bəy Zərdabinin uzun illər arzusunda olduğu müsəlman-qız məktəbi Bakıda açıldı. Bu maarif ocağına rəhbərlik Hənifə Məlikovaya həvalə olundu. 1901-1905-ci illər ərzində məktəb təkcə təhsil məkanı yox, həm də müsəlman qadınının cəmiyyətə çıxış qapısı oldu.

1908-ci ildə Hənifə xanımın təşəbbüsü ilə Bakıda "Nicat" maarif cəmiyyətinin bir şöbəsi kimi "Bakı xanımlarının ilk təşkilatı" yaradıldı. Bu təşəbbüs dövrün patriarxal düşüncəsinə qarşı cəsarətli bir addım idi. Təşkilata xeyriyyəçi Murtuza Muxtarovun həyat yoldaşı Liza Tuqanova sədrlik edirdi. Qadınların sosial həyatda birləşməsi, təşkilatlanması və ictimai məsələlərdə fəal iştirakı həmin dövr üçün inqilabi addım idi. Qısa müddət ərzində bu təşəbbüs genişlənərək Bakı Müsəlman Qadınlarının Xeyriyyə Cəmiyyətinə çevrildi və maarifləndirmə, xeyriyyəçilik və sosial dəstək sahələrində mühüm işlər gördü.

Hənifə xanım 1909-1919-cu illər arasında Bakı şəhər dövlət birinci rus-tatar qız məktəbinin müdirəsi kimi fəaliyyətini davam etdirdi. Hər addımı ilə sübut edirdi ki, qadın sadəcə ailənin dayağı deyil, cəmiyyətin tərəqqisində aparıcı qüvvədir.

1920-1926-cı illərdə Azərbaycan SSR Xalq Maarif Komissarlığında məsul vəzifədə çalışan Hənifə Məlikova ömrünün sonuna qədər xalqı maarifləndirmək yolundan dönmədi. Xalqının ağrısını öz ağrısı bildi, maarif işığını isə övladlarına miras qoyduğu ən böyük dəyər hesab etdi. Həyatın bütün çətinliklərinə baxmayaraq, övladlarının da ali təhsil alması, cəmiyyətə faydalı vətəndaşlar kimi yetişməsi üçün əlindən gələni etdi. Ailə dəyərləri və maarifçilik onun həyat fəlsəfəsinin təməlini təşkil edirdi.

1929-cu ildə Bakı şəhərində vəfat edən bu böyük maarifçi xanım ilk olaraq şəhər qəbiristanlığında dəfn olundu. Amma sonralar onun nəşi uzun illər çiyin-çiyinə xalq üçün çalışdığı həyat yoldaşı Həsən bəy Zərdabinin məzarının yaxınlığına köçürüldü. Onlar bir ömür boyu birlikdə yaşadılar, eyni yolda çətinliklərə dözdülər, eyni ideallar uğrunda mübarizə apardılar və sonda da eyni torpaqda yanaşı uyudular. Bu iki böyük insan - Hənifə xanım və Həsən bəy Zərdabi maarifpərvərliyin təməlini birgə atdılar. Onların ruhən və cismən bir-birinə və xalqına bağlılığı bu gün də yaddaşlardadır.



Məhz Hənifə xanımın miras buraxdığı xeyirxah irs bu gündə yaşayır. Dövlət tərəfindən təşkil olunan proqramlar, görülən işlər gənc qızlarımızın maariflənməsi baxımından olduqca önəmlidir. Bu kimi işlərdən ən ümdəsi isə "Hənifə Məlikova-Zərdabi təqaüd proqramı"dır. Sevindirici haldır ki, bu düşüncə dövlət siyasətinin də əsas xəttinə çevrilib. Həyata keçirilən hər təşəbbüs, atılan hər addım bir həqiqəti göstərir. Azərbaycan qızının gələcəyi diqqət mərkəzindədir. Məhz bu məqsədlə gerçəkləşdirilən "Hənifə Məlikova-Zərdabi Təqaüd Proqramı" ölkəmizdə qadın təhsilinə göstərilən yüksək diqqətin bariz nümunəsidir. Proqram Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Elm və Təhsil Nazirliyi və Təhsilin İnkişafı Fondunun əməkdaşlığı ilə həyata keçirilir. Bu təşəbbüsün əsas məqsədi imtahanlarda yüksək nəticə göstərmiş, lakin aztəminatlı ailələrdən və həssas qruplardan olan tələbə qızları dəstəkləməkdir. Məhz buna görə proqram çərçivəsində seçilən gənc xanımlar aylıq 200 manat məbləğində təqaüdlə təmin olunurlar. Bu məbləğ rəqəm olaraq kiçik görünsə də, arxasında böyük bir mənəvi yük və sosial məsuliyyət daşıyır. Qürurverici haldır ki, 2022-2023-cü tədris ilində 25 nəfər bu təqaüdə layiq görülmüşdüsə, 2024-cü ildə bu rəqəm 135 nəfərə yüksəlib. Yəni bu proqram daha geniş coğrafiyanı, daha çox ailəni əhatə edir, daha çox qız uşağına ümid, mənəvi dayaq, gələcək bəxş edir.

**Ləman TƏHMƏZ,**
**Nurlan ABDALOV,**
**"Respublika".**